# Dünyaşöhrətli oftalmoloq-alim, nüfuzlu ictimai xadim



*Uca Tanrının bəxş etdiyi ömür payında işıqlı amalların, nəcib duyğuların təcəssüm tapdığı sevgi dolu bir həyat yaşamaq, xeyirxahlıq etmək, sadə insanlara qayğı göstərmək, son ümid yeri olmaq hər insanın taleyinə yazılmır. Enişli-yoxuşlu, bəzən ayrılan, bəzən də kəsişən ömür yolunda irəliləyərkən özündən sonra onu hörmətlə, sevgi ilə xatırlayan insanlar, xoş xatirələr, gözəl əməllər qoyub gedənlər heç vaxt unudulmur, yaddaşlarda iz salaraq əbədiləşirlər. Müdrik siyasətçi, müasir müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevlə çətin, şərəfli ömür yolunda qoşa addımlayan, ona mənəvi dayaq olan, xalqımıza tarix yazan qalib sərkərdə bəxş edən, yüksək mənəvi keyfiyyətləri, zəngin elmi irsi, dərin biliyi ilə yüzlərlə insanın qaranlıq dünyasını nura qərq edən fədakar həkim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın xatirəsi yalnız yaxınlarının, doğmalarının deyil, miyonların qəlbində yaşayır. Ulu öndər Heydər Əliyev Zərifə xanım haqqında xatirələrində deyirdi: "...Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır...".*







## 15 aprel akademik Zərifə xanım Əliyevanın anım günüdür

Elmi, tibbi və pedaqoji fəaliyyəti, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər ilə Azərbaycan tibb elminin inkişafında misilsiz xidmətlər göstərən görkəmli alim 1923-cü il aprelin 28-də qədim Naxçıvan diyarının Şərur rayonunun Şahtaxtı kəndində ictimai-siyasi xadim Əziz Əliyevin ailəsində anadan olmuşdur. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, ali təhsilini əla qiymətlərlə başa vuraraq o dövrdə çox geniş yayılmış traxoma xəstəliyinə qarşı müalicəvi və profilaktik tədbirlərin təşkilində yaxından iştirak etmişdir. Tələbəlik illərində tanınmış alimlərdən sevib-seçdiyi sənətin sirlərini dərindən öyrənən gənc həkim respublikanın ən ucqar rayonlarına gedərək həkim-oftalmoloqlara gözü zədələyən, hətta korluğa səbəb olan bu infeksion xəstəlik haqqında məruzələr oxuyur, həmçinin maarifləndirmə işləri aparırdı. Lakin görmə qabiliyyətini itirmiş insanların qaranlığa qərq olmuş ömürlərinə nur bəxş etmək, amansız xəstəliklə mübarizə aparmaq üçün daha da təkmilləşmək, inkişaf etmək lazım idi. Bu məqsədlə Zərifə xanım Moskva şəhərindəki Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnir. İki ildən sonra kamil bir mütəxəssis kimi doğma Vətəninə qayıdır və 1949-cu ildə Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır. Əmək fəaliyyəti ilə paralel olaraq elmi tədqiqatlarını da davam etdirən Zərifə xanım traxoma xəstəliyinin yaranma səbəbləri və müalicəsi mövzusunda araşdırmalar aparır. Respublikamızın bütün rayonlarını bir-bir gəzərək traxoma xəstəliyinə qarşı müalicəvi-profilaktik tədbirlər həyata keçirir.

Elmi işini traxomanın müalicəsində və xəstəliyin ağırlaşma hallarında daha təsirli vasitələrin tətbiqinə həsr edən Zərifə xanım Əliyeva 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edir. Gecə-gündüz yorulmadan çalışan, bu xəstəliklə sözün əsl mənasında mübarizə aparan alimin təklif etdiyi müalicə metodunun tətbiqinə qısa müddətdə başlanılır və əldə olunan uğurlu nəticələr sayəsində traxomanın sintometsinlə müalicəsi mümkün olur.

Zərifə xanımın oftalmologiya elminə daha bir töhfəsi qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlıdır. Alimin bu sahədə apardığı tədqiqatların nəticələri barədə elmi məqalələrindən göz həkimləri dəyərli mənbə, elmi vəsait kimi bu gün də istifadə edirlər. Zərifə Əliyeva 1969-cu ildə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti vəzifəsinə təyin olunur. Uzun illik təcrübələrin, elmi tədqiqatların əsasında 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmoloji mərkəzlərindən biri olan Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyasını müdafiə edir. 1979-cu ildə Zərifə xanımın təklifi ilə akademik A.Qarayev adına Fiziologiya İnstitutunda dünyada ilk elmi-tədqiqat laboratoriyası - görmə üzvünün peşə patologiyası və fiziologiyasının problemləri laborotoriyası yaradılır. Alim burada rezin və neft-kimya sənayesi müəssisələrində uzun müddət işləyən insanlarda gözün və köməkçi üzvünün peşə intoksikasiyası şəraitində funksiyalarının reallaşdırılmasının fizioloji və biokimyəvi mexanizmlərinin öyrənilməsi istiqamətində elmi axtarışları ilə peşə oftalmologiyasının əsasını qoyur. Tibb elmləri doktoru, professor Z.M.Skripniçenko bu barədə deyirdi: "Professor Z.Ə.Əliyevanın görmə orqanının peşə xəstəliyi kimi yeni bir problemin araşdırılmasına nə qədər güc və enerji sərf etdiyini yaxşı bilirəm. Görmə orqanının zədələnməsinin klinik xarakteristikası funksional və daxili dəyişikliklərin dözümlülüyünü artırmağa yönəldilən tədqiqatlarla tamamlanırdı. Aparılan tədqiqatların miqyasının böyüklüyü də diqqəti cəlb edir. Belə ki, yaşından və iş stajından asılı olmayaraq şin istehsalında çalışan 1281 işçinin üzərində klinik müşahidə aparılmışdı. Üstəlik, bu araşdırmalar uzun illər ərzində müəyyən istehsal şəraitində kimyəvi intoksikasiyaya məruz qalan heyvanlar üzərindəki eksperimentlərlə elmi şəkildə uzlaşdırılmışdı. Göz xəstəliyinin morfoloji və histokimyəvi tədqiqatları bu xəstələrin patogenetik mahiyyətini aşkara çıxarmağa kömək etdi və göstərdi ki, gözün qabaq hissəsində əmələ gələn dəyişikliklər şin zavodunda istehsal amillərinin birbaşa təsiri ilə, gözün daxili hissəsinin zədələnməsi isə bütövlükdə həmin amillərin ümumtoksik təsiri ilə əlaqədardır".

Sovet dövründə oftalmologiya elmində ən yüksək Averbax mükafatına layiq görülən Zərifə Əliyeva ümumilikdə qlaukoma, peşə oftalmologiyası, göz travmatizmi, görmə orqanının virus zədələnməsi, bədxassəli şişlər, göz yaşı yolu xəstəlikləri kimi oftalmologiyanın aktual məsələlərinə həsr olunmuş 12 monoqrafiya, 150-yə yaxın elmi işə, 1 ixtira və 12 səmərələşdirici təklifə imza atmışdır. Zərifə xanımın klinik diaqnostik istiqamətdə apardığı tədqiqatların nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmləşmişdir. Bu əsərlər arasında "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" oftalmologiya elmində böyük rəğbətlə qarşılanmışdır. Alim göz yaşı aparatının xəstəliklərinin öyrənilməsinə dair "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" əsərlərinin müəllifidir. Dünya miqyasında iridodiaqnostikaya aid kitabları isə ilk dəfə Zərifə xanım Əliyeva yazmış, iridodiaqnostika və iridoterapiya problemlərinə dair iki monoqrafiya hazırlamışdır.

Görkəmli alim "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" kimi mühüm əhəmiyyətli elmi əsərlərin müəllifi kimi də böyük şöhrət qazanmışdır. "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya", "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası" monoqrafiyaları təkcə ölkəmizdə deyil, respublikamızın hüdudlarından kənarda da böyük marağa səbəb olmuşdur. Gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqi istiqamətində apardığı araşdırmaların nəticələri alimin "Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə təhlil edilmişdir. Zərifə xanım Əliyeva bütün ömrünü həsr etdiyi oftalmologiya elmi sahəsində yazdığı əsərlər Azərbaycan tibb elminin qiymətli xəzinəsidir.

Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, oftalmologiya kafedrasının müdiri işləyən Zərifə Əliyeva həkim-oftalmoloqların yetişməsində, yüksəkixtisaslı tibbi kadrların hazırlanmasına böyük rol oynamış, pedaqoji fəaliyyətində həkim etikası və tibbi deontologiya sahələrinə xüsusi diqqət yetirmişdi. Alimin "Yüksək əqidə" adlı kitabı gənc həkimlərin bu sahənin incəliklərini öyrənmələrində, əsl mütəxəssis kimi formalaşmalarında bir mayak idi. Novator alim zəngin elmi irsi, oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatları, qazandığı nailiyyətlər, fundamental əsərləri ilə bir məktəb yaratmışdır. Bu məktəbdən pərvazlananlar həm Azərbaycan , həm də dünya tibb elminə böyük töhfələr vermişlər.

İnsan ömrünün uzunluğu və ya qısalığı yaşanmış illərlə deyil, onun əməlləri ilə ölçülür. Xeyirxahlıq, qayğıkeşlik, sadəlik, nəciblik nümunəsi olan Zərifə xanım elə bir zirvə fəth etmişdir ki, o zirvədən bütün insanlığa, bəşəriyyətə nur ələnir. Görkəmli alimin, böyük insanın unudulmaz xatirəsi insanları bu işığın ətrafına toplayır, bütün ömrünü həsr etdiyi oftalmologiya elminə aid dəyərli əsərləri gənc həkimlərin elm yoluna çıraq tutur.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**